# Bahar ömürlülər

***İnsan ömrünün yaddaşlara iz salması, əbədiyaşarlıq qazanması yaş həddi ilə ölçülməz. İnsan var ki, bir əsr yaşar, yaşadığı mühitdən, tərzdən asılı olmayaraq ömrünün bir məna çaları belə olmaz. Dünyasını dəyişsə də yaşadığı ömürlə fərqləndirilməz; yəni varlığı da yoxluğu ilə eyniləşər. Yaddaşlarda heç olmazsa bir-iki nəsil xatırlanmayan ömür, ömür sanılmaz. Ancaq elə ömürlər də var ki, yaşam rəqəminin az olmasına rəğmən əbədiyaşarlıq qazanar: yaşam tərzi, peşəsi, ziyası, səviyyəsi, qəhrəmanlığı, ən başlıcası insanlığı ilə.***

***Şəhid ömürləri isə əbədiyaşarlıq sayılar. Bahar ömrü ilə yalnız şəcərələrdə deyil, xalqının tarixi yaddaşında yeni tarix yazar, ürəklərdə məskunlaşarlar. Məhz belə igidlərdir - Əsəd Zeynallı və Aydın Bayramov.***

**Əsəd Arzuman oğlu Zeynallı** - 1999-cu ilin avqust ayının 12-də Qəbələ rayonunun Seyidqışlaq kəndində doğulmuşdur. Orta təhsilini Seyidqışlaq kənd məktəbində almışdır. Halallıq, əməksevərlilik, doğru-düzgünlük, qayğıkeşlik məhz Əsədə xas olan ən gözəl xüsusiyyətlər idi.



Vətəninə, torpağına, xalqına bağlılığı özünəxas vicdani bir borc, insanın yaşaması üçün ən vacib amil sanardı. Gənc olmasına rəğmən düşüncə və davranış tərzi ilə həmyaşıdlarından seçilər, ailəsinə sevgisini vətənə olan sevgisi ilə birləşdirərdi. Elə bu xüsusiyyətləri də onu 2020-ci ilin sentyabrın 27-də başlanan Vətən müharibəsinə könüllü getmət üçün hərbi komisarlığa müraciət etməyə sövq etdi.

Azərbaycan Ordusunun əsgəri olan Əsəd Zeynallı Ermənistanın işğalı altında olan ərazilərin azad olunması uğrunda gedən döyüşlərdə hələ ilk günlərdən iştirak etmişdir. Suqovuşan uğrunda gedən ağır döyüşlərdə döyüşən Əsəd Zeynallı həmçinin Tərtər rayonu uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla döyüşmüş və oktyabrın 13-də şəhid olmuşdur. Şəhidin nəşi itkin kimi uzun müddət axtarışda olmuş və tapıldıqdan sonra doğulduğu Seyidqışlaq kəndində dəfn olunmuşdur.

Ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Əsəd təkcə ailəsinin deyil, vətənini sevən hər kəsin qəlbində yeni tarix yazan bir igid kimi əbədi yaşayır.

**Aydın Mətləb oğlu Bayramov** - Qəbələ rayon Əmirvan kəndində anadan olmuşdur. Orta təhsilini I Qarabağ Müharibəsi şəhidi Yadigar Vəliyev adına Əmirvan kənd məktəbində almışdır. Orta təhsilini başa vurduqdan sonra həqiqi hərbi xid-



mətə getmiş və Qusar rayon hərbi hissəsində kəşfiyyatçı kimi başa vurmuşdur. Hərb sənətini əsil igidlik, kişilik məktəbi sanan Aydın Bayramov hərbçi olmaq, vətəninə xidmət etmək arzusunda idi. Torpaqlarımızın işğalı altında qalan hissəsinin azad olunması, yağmalanan və xarabazara çevrilən şəhər və kəndlərimizin abadlaşdırılması, məcburən köçkün olan eloğlularımızın öz obalarına qaytarılması onun ümdə arzusu idi. Vətənində "vətənsizləşmənin" onların qəlbində, qaçqın titulunun adlarının önündə yer alması Aydını qəlbən ağrıdırdı.Torpaqlarımızın azadlığı və bu yolda əsil Azərbaycan vətəndaşı kimi döyüşərək bütöv Azərbaycan uğrunda mübarizə aparmaq onun başlıca arzusu və məqsədi idi. Məhz ona görə də hərbçi oldu...

Aydın Bayramov 2016-cı ildə Aprel döyüşlərində kəşfiyyatçı kimi iştirak etmişdi.

2020-ci il sentyabrın 27-də başlanan Vətən Müharibəsi zamanı Murovdağ, Talış kəndi, Ağdərə istiqamətində gedən döyüşlərdə döyüşmüşdür. Şücaətli döyüşçü Aydın Bayramov oktyabrın 9-da Ağdərə uğrunda gedən döyüşlərdə şəhadətə qovuşmuşdur. O, Əmirvan kəndində dəfn olunmuşdur.

Polad əqidəli, Azərbaycan Respublikasının Milli Qəhrəmanı Polad Həşimov yolçusu, özünə məxsus vətən sevgisi olan bir Azərbaycan vətəndaşı, igid hərbçi, Azərbaycan Ordusunun mətin və iradəli, qorxmaz kəşfiyyatçısı Aydın Bayramov həmişə yaddaşlarda yaşayacaq. Əbədiyaşarlıq qazanan Aydın ölümündən sonra bir çox medallarla, o cümlədən "Vətən uğrunda" medalı ilə təltif olunmuşdur.

Bahar ömürlü şəhidlərimiz! Məkanınız cənnət olsun!

**Şəhla XƏLİLQIZI,**
**Qəbələ şəhəri**

# Dəli seləm, kövrək bulaq...

Kiçik bir əşyanın itkisi insanda intizar asılılığı yaradır; itirdiyini tapmaq üçün həmişə, hər yerdə gözü axtarır və illər keçsə belə o itiriləni bir zaman tapacağı ümidi ilə yaşayır. Ümid onu yaşadır. Ancaq itirdiyi əşya zəhməti bahasına olarsa, o zəhmətinə heyfsilənərək xatırlayır və atdığı hər addımda, yaşadığı hər məkanda itirdiyinin izlərini düşünür...

Əgər insan əzizini itirirsə daha çox yanğı ilə acıyır və bir müddət sonra bu itki yarası da "qaysaq" tutur. Torpaq "sərindir" və insanı sakitləşdirər, torpaq belə yaraların məhləmidir deyə-deyə insan əzizini torpağa "tapşırır" və zaman-zaman həyatına davam etmək üçün bu itki "yarasını" yaddaş və xatirə "ekranına" yerləşdirir. İllər keçdikcə adiləşir, təbiiləşir bu itki... Yalnız və yalnız elə bir itki var ki... Bu nə adiləşə, nə də xatirələrə, yaddaşlara köçərək insan qəlbini sakitləşdirər: Bu - şəhid itkisidir, ömrü həmişəbahar, arzuları gözlərində donaraq bir daş ömrü yaşayan şəhid... ölməzliyi ömür seçən şəhid... Qanı ilə torpağını vətən edən şəhid, tarixi tarixləşdirən şəhid... Vətən məhfumunu ömrü ilə dəyişərək şəhid adını, şəhid sözünü dəyərləndirən, əvəzolunmaz qiymətləndirən varlıq...

Şəhadətə qovuşanların valideynləri həmişəyaşar övladlarının sayəsində həmişə ruhsuz bir bədən sahiblərinə çevrilərlər. Həmişəbahar ömürlü övladları insanlığın zirvəsinə ucalıb şəhadətə qovuşandan sonra o ucalığın, o zirvənin bəyazlığı şəhid valideynlərinin saçlarına, qaşlarına, kirpiklərinə qonar... Zirvədəki qar və günəş isə bir-biri ilə tərs



təmasda olaraq qəlblərdəki yaşam mücadiləsinə çevrilər. Buza dönmüş ürəkləri günəş şəfəqləri isidə-isidə onları "döyünməyə" zirvə fatehlərinin yarım qalmış ömürlərinin "daş dövrünü" qranit və polad dövrünə çatdırmaq üçün onlara "yaşam vəsiqəsi" qazandırar, ağrı-acılarına qürur və məğrurluq "libası" geyindirərək həyat mücadiləsi verər. Yarım qalmış arzular öz məcrasını dəyişsə də həllini dəyişməz, sadəcə bu arzuların icraçıları dəyişər: qara ilə ağ rəngin bir-birinə uyğunlaşdığı bir taplo şəklində şəhid valideynləridir. Onlar "daş" ömürlülərin, əbədiyyən yaşam qazananların "buz və ocaq" timsallı ürək sahibləri olan doğmaları, əzizləri...

Nə qədər ki Vətən var, nə qədər ki Torpaq var, onları canından çox sevərək qanı ilə, canı ilə yaşadan, əbədiyyən var edən əbədiyaşar ömürlü şəhidlər də var və var olacaq!.. Çünki onlar Vətən fədailəridir.

Arzularını, istəklərini yalnız bir Vətən məfhumu ilə əvəz edərək tarixi tarix edən, xalqını xalq edərək məğrurluq və Zəfər simvolunun yaradıcıları olar şəhidlər!

Düz 3 ildir ki, yaşadığı ömrün hər gününü, hər anını övladıyla



"övladsız" yaşar Faiq ata, Dilruba ana!.. Sübh açıldıqca göy qübbəsindəki ağ duman selindən "ağ xalatlı" - sağlamlıq keşikçisi övladını arayar. Bəlkə dumanlar ağlığında oğlunun siluetini belə görər deyə.

Günəş dağlar arxasından boylandıqca onun şəfəqləri qəlblərinə axan göz yaşlarını qurutmağa çalışar. Günəşə baxıb övladlarının onlara gülümsədiyini sanar şəhid valideynləri - o cümlədən Faiq ata, Dilruba ana... Bəlkə də ağ dumanlarda axtardığı "ağ xalatlı" övladının günəşin qızılı şəfəqləri ilə libasını dəyişərək onların qəlbinə bir istilik, bir işıq bəxş etdiyini düşünərlər. Axı humanist böyütmüşdürlər Aqşin balanı...İnsanların sağlam və xoşbəxt həyat tərzinin simvolu idi Aqşinimiz. Ömrünün baharını əbədiləşdirən Vətən oğlu...Sadəliyi, təmkini, qorxmazlığı, sevgini, qüruru, məğrurluğu, bir sözlə, paklıq və humanistliyin vəhdətini tam xarakterində cəmləşdirmiş biri idi Aqşin! Bu onun baxışlarından; həyatda görməsək belə, məna çaları ilə zəngin olan üzünün insana müsbət aura bəxş etməsindən, ürəyinin baxışlarıyla birgə insanı sakit-sakit, mənən "danışdırmasından" da hiss olunur. O baxışlar onun xa-



rakterini ona zillənən gözlərə, duymaq istəyən ürəklərə apaydın oxudur bir igidin həyat balladasını, həyat simfoniyasını... Şücaət dolu insanlıq epopeyasını... Hər dəfə həyata qaytardığı, sağlamlığını bərpa etdiyi insanlar onun əvəzolunmaz sənət, peşə əsəridir. Bu "əsərlər" isə bədii yazılmış deyil, Allahın əmri ilə yazılan cismani əsərdir!... və "cismani" əsərlərin qəhramanları tarix yaddaşı ilə bərabər şəcərə yaddaşında da onu yaşadır. Müharibə sözünü cılızlaşdıran bir ömür yaşadı Aqşin-həkim-şəhid ömrü...

Aqşin Faiq oğlu Ənvərli 1994-cü ildə, oktyabrın 10-da Qəbələ şəhərində doğulmuşdur. 2001-2012-ci illərdə şəhid N.Apayev adına şəhər 4 saylı orta məktəbində təhsil almış, 2012-2018-ci illərdə isə Azərbaycan Dövlət Tibb Universitetində ali təhsil almışdır. O, 2018-ci ildə tibb xidməti leytenantı rütbəsi ilə Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvan şəhərində yerləşən "N" saylı hərbi hissəsində xidmətə başlamış, bir müddət sonra isə Xüsusi Təyinatlı Qüvvələrin Tibb Xidmətinin rəisi vəzifəsinə təyin edilmişdir.

Azərbaycan Ordusunun leytenantı olan Aqşin Ənvərli 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən Müharibəsi zamanı Cəbrayılın, Fizulinin, Qubadlının, Şuşanın və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə yaralanan hərbçilərə yerindəcə yardım edərək onların yaşamına səbəb olmuşdur. Özü isə nayabrın 6-da Hadrutun azad edilməsi zamanı şəhid olmuş və ata yurdu Xırxatala kəndində dəfn olunmuşdur.

Ölümündən sonra dövlətimiz tərəfindən bir neçə medallarla, o cümlədən "Vətən uğrunda" medalı, "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuşdur. Aqşin döyüşlər zamanı səngərdə olarkən "baş leytenant" rütbəsi almışdır.

Ölümsüzlük məfhumunu yalnız vətənpərvər və milli-mənəvi cəhətdən zəngin insanlar tam mənada anlarlar və qiymətləndirərlər. Elə bu ölümsüzlük də şəhid valideynlərini yaşam məcburiyyətinə məcbur edən bir kodeksdir.

Aqşin kimi - yaşadığı 26 illik ömrün hər gününü hər yaş dövrünə uyğun, insan kimi insan olaraq yaşayan bir igidin valideynləri dağ əzəməti ilə yaşamalı, onun arzu və xəyallarının gerçəkləşməsi üçün güc və qüvvət taparaq həyata davam etməli, cəmi şəhid valideynlərinə dözüm örnəyi olmalıdır. Axı Aqşin də həmişə insanların sağlamlıq və həyat keşikçisi olmuşdur. Dahi şair Məmməd Araz şeriyyətində deyilir;

**Qar olmasa, sel olmasa**
**bulaq da olmur,**
**Dəli seləm, kövrək bulaq...**

Hər həzin bulaq səsində, hər coşğun dağ, çay selində Aqşin yaşar. Hər bulaq zümzüməsi onun səsi, hər bulaq mənbəyi onun həyat davamı...

**BİBİXANIM.**